# BAKI DÖVLƏT UNİVERSİTETİ

---

## 2020-ci ildə Sosiologiya kafedrası ETİ-də elmi plan üzrə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin nəticələrinin

# HESABATI

| | |
|---|---|
| **Mövzunun adı:** | **«Müasir Azərbaycan cəmiyyətində sosial strukturun, sosial bərabərsizliyin və həyat keyfiyyətinin dinamikası»** |
| **Mövzu rəhbərinin soyadı, adı və atasının adı:** | **Rüstəmov İzzət Əşrəf oğlu** |
| **Mövzunun icra müddəti (başlama və bitmə tarixi):** | **01 yanvar 2020-ci il - 01 yanvar 2021-ci il** |

**Bakı - 2020**

**Mövzu üzrə icraçılar haqqında məlumat (rəhbər daxil olmaqla):**

| S/S | Soyadı, adı, atasının adı | Struktur | Vəzifəsi | Ştat vahidi | Elmi adı və dərəcəsi |
|---|---|---|---|---|---|
| 1. | Həsənov Rəfail Musa oğlu | Sosiologiya kafedrası | Kafedra müdiri | 0,5 | Professor, sosiologiya üzrə elmlər doktoru |
| 2. | Əzimov Kazım Ağamirzə oğlu | Sosiologiya kafedrası | professor | 1 | Professor, fəlsəfə üzrə elmlər dokrotu |
| 3. | Ağayev Tahir Bayram oğlu | Sosiologiya kafedrası | dosent | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 4. | Cavadova Hörmət Qənbərəli qızı | Sosiologiya kafedrası | dosent | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 5 | İsmayılova Sevil Aydın qızı | Sosiologiya kafedrası | dosent | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 6. | Əliyeva Yaqut Nadir qızı | Sosiologiya kafedrası | dosent | 1 | Dosent, sosiologiya üzrə fəlsəfə doktoru |
| 7. | Xəlilova Fərəh Rəhman qızı | Sosiologiya kafedrası | Müəllim | 1 | Sosiologiya üzrə fəlsəfə doktoru |
| 8. | Haşımova Südabə Söhrab qızı | Sosiologiya kafedrası | Müəllim | 1 | ----- |

| 1 | **Mövzu üzrə cari ildə yerinə yetirilmiş elmi işlər**<br>*(plan üzrə mövzunun aktuallığı və məqsədi göstərilməklə və 2 səhifədən çox olmamaqla)* |
|---|---|
| | Müstəqilliyinin 30-cu ilində Azərbaycan cəmiyyəti planlı iqtisadiyyatdan azad bazar iqtisadiyyatına keçidi, dövlət mülkiyyətinin özəlləşdirməsini (aqrar sahədə 99%) müvəffəqiyyətlə başa vuraraq uğurlu liberal islahatlar keçirən, siyasi sahədə təkpartiyalılıqdan uzaqlaşaraq plüralist, inkişaf etməkdə olan vətəndaş cəmiyyətinə malik, kommunist ideologiyası və totalitarizmdən azad, mədəni sahədə qlokalizmi uğurla davam etdirən bir dövlətə çevrilmişdir.<br>Baş verən dəyişikliklər sosial sahədə də öz əksini tapmışdır. Belə ki, ölkədə yeni ictimai münasibətlər fonunda sosial qütbləşmənin qarşısını almaq üçün dövlət tərəfindən uğurlu tədbirlər görülür: bunun üçün əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsi üçün müxtəlif layihələr həyata keçirilir, orta sinfin sayının daha da artırılması istiqamətində hərtərəfli tədbirlər görülür.<br>Yeni iqtisadi şəraitdə hökumətin iqtisadi sistemdə fəal rol oynamağa davam etməsinə baxmayaraq həm sahibkarlığın inkişafını, həm də müştəri məmnuniyyətini təşviq edən siyasət həyata keçirməlisi aktual əhəmiyyət kəsb edir.<br>Son onilliklərdə ölkənin sosial strukturunda prinsipial dəyişikliklər baş vermişdir. Belə ki, iqtisadiyyatda baş verən liberal islahatlarla əlaqədar sosial təbəqələşmə dərinləşmiş, yeni sosial təbəqələr (məs., fermerlər, ticarət və xidmət sahələrinə aid olan kütləvi peşələr və s.) və sosial qruplar yaranmışdır.<br>Post-neft dövründə (2015-ci ildən başlayaraq) Azərbaycanda qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilməyə başlandı ki, bu da iqtisadiyyatda diversifikasiyaya nail olmağa imkan verdi. 2016-cı ildən bu günə qədər ölkədə resurs əsaslı iqtisadiyyatdan istehsala əsaslanan iqtisadiyyata keçid, iqtisadiyyatın daha da şaxələndirilməsi, iqtisadi böyümənin bərpası siyasəti həyata keçirilir.<br>Azərbaycanda sosial bərabərsizliyin ədalətli həlli istiqamətində də dövlət tərəfindən bir sıra addımlar atılır ki, bu da yeni iş yerlərinin açılmasında; siyasi kapitalizmin təzahürlərinin aradan qaldırılmasında (məs., son vaxtlar bir sıra yüksək vəzifəli şəxslərin işlərində yol verdikləri qanun pozuntularına görə vəzifələrindən uzaqlaşdırlması); vergi və gömrük sahələrindəki ciddi islahatlarda, əhalinin maddi rifahının yaxşılışdırlmasında özünü göstərir.<br>Bu tədbirlər sosial dövlət olan Azərbaycanda əhalinin ümumilikdə həyat keyfiyyətinin yaxşılışdırlmasına müsbət təsir göstərir.<br>Son illərin mühüm bir hadisəsi - 2016-cı ilin dekabr ayında Azərbaycan Respublikasının Prezidenti tərəfindən milli iqtisadiyyatın əsas sahələri ilə bağlı qısa, orta və uzunmüddətli dövrləri əhatə edən və 2025-ci ilə qədər olan dövr üçün iqtisadi inkişaf strategiyası və fəaliyyət planından ibarət Strateji Yol Xəritələrinin təsdiq edilməsi oldu. 2025 – 2050-ci illərədək dövr üçün sosial texnologiyaların vəziyyətini yaxşılaşdıracaq və insan inkişafı indeksinin yüksək səviyyəsinə çatacaq yüksək texnologiyaların və iqtisadiyyatın optimal quruluşunun inkişafına əsaslanan güclü rəqabətqabiliyyətlilik və əhatəli iqtisadiyyat formalaşdırılması nəzərdə tutulur. Bu inkişaf prosesləri nəticəsində 2025-ci ildən sonrakı dövrdə adambaşına düşən gəlir baxımından Azərbaycan Avropa Birliyi ölkələrinin müvafiq səviyyəsinə yaxınlaşacaq, dövlət büdcəsinin ARDNF-dən transfertlərdən asılılığını əhəmiyyətli dərəcədə azaldacaqdır.<br>Bütün bunlar Müasir Azərbaycan cəmiyyətində sosial strukturun, sosial bərabərsizliyin və həyat keyfiyyətinin dinamikasınln tədqiqini zəruri edir.<br>Bu məsələlərin tədqiqi istiqamətində kafedranın əməkdaşları tərəfindən müvafiq elmi tədqiqatlar aparılmış və müəyyən nəticələr əldə edilmişdir. |
| 2 | **Hesabat dövründə alınmış elmi nəticələr, onların yenilik dərəcəsi**<br>*(nəticələr səlis və konkret yazılmalıdır)*<br>**Сос.ц.е.д., проф.Р.Щясянов – “Müasir Azərbaycanda sahibkarlığın inkişaf perspektivləri”** |

Sosial-iqtisadi tərəqqi əhalinin mədəni xüsusiyyətlərindən və ya təbii ehtiyatların mövcudluğundan daha çox iqtisadi institutlardan asılıdır. İnsan davranışının müəyyən tərəflərini izah etməkdə mədəni amillər vacibdir. Ancaq onlar davranışın bütün növlərini izah edə bilmirlər: eyni motivli eyni insanlar fərqli institusional şəraitdə fərqli davranmağa meyllidirlər.

İnkişaf etməkdə olan ölkələrin əksəriyyətinin problemi sahibkarlığın "sosial dağıdıcı" fəaliyyətlərə yönəldilməsidir. Postsovet ölkələrində həyata keçirilən sosial-iqtisadi islahatlar sosial məhsuldar fəaliyyətin çiçəklənməsini təmin edən institusional bazanın bərpasına yönəldilməlidir.

İqtisadi azadlığın müxtəlif səviyyələri fərqli ölkələrdə iqtisadi artımın əhəmiyyətli fərqlərini izah edir. Sahibkarlıq iqtisadi azadlığın iqtisadi artımı təşviq edən əsas yoludur.

Yeni iqtisadi şəraitdə Azərbaycan hökumətinə sahibkarlığın inkişafına təkan verən siyasət lazımdır. İqtisadiyyat üçün təkcə sahibkarlığın inkişafını deyil, həm də sahibkarlığın təşviqinə əsaslanan iqtisadi qurumun keyfiyyətini və uyğun iqtisadi siyasəti təmin etmək vacibdir, çünki onun əsasında duran rəsmi və qeyri-rəsmi mexanizmlər iqtisadi tərəqqi perspektivlərini müəyyənləşdirirlər. Dövlət orqanları siyasətin səmərəli həyata keçirilməsini və sahibkarlığın inkişafını təmin etmək üçün rəsmi və qeyri-rəsmi qurumların keyfiyyətini hökmən nəzərə almalıdırlar. İnstitusional dəyişikliklər bazara giriş və / və ya çıxışa maneələri aradan qaldırdıqda və ya azaltdıqda sahibkarlara müsbət təsir göstərə bilər və bununla da sahibkarlar üçün imkanlar yaratmış olar.

**Fəl.ü.f.d.prof.K.Əzimov – "Sosial biliklərin inteqrasiyası"**

İnterdisiplinar yanaşma çərçivəsində inteqrasiya və sintez əsas kategoriyalardır. Ənənəvi fənlərdən fərqli olaraq, interdisiplinar yanaşma biliyin hasili və emalının yeni epistemoloji model kimi təqdim edilir. Sosioloji bilik yaxud sosial biliklər sistemi interdisiplinar epistemologiyanın tələblərinə görə inteqrasiya və sintez edilmiş hibrid (sintetik) bilik növü qismində izah edilir. Klassik yaxud ənənəvi fənlərlə bəzi oxşar xüsusiyyətləri bölüşməklə yanaşı, interdisiplinar sosial bilik fərqli əlamətlərə malikdir. Elmi işin əsas məqsədi bu xüsusiyyətləri ümumiləşdirərək, sosiolgiya fənninin XXİ əsrin epistemoloji kontekstində yerini və rolunu müəyyənləşdirməkdən ibarət olmuşdur.

**Fəl.ü.f.d., dos.T.B.Ağayev – "Müasir dünyada qloballaşma prosesləri və Azərbaycan"**

Dünya inkişafının müasir dövrünün rəngarəngliyi və böhran hallarının artması təhlükəsi bəşəriyyəti daha çox narahat edir. Bunun nəticəsidir ki, son illərdə davamlı inkişaf strategiyasının işlənib hazırlanmasına xüsusi diqqət verilir. Bu konsepsiya BMT-nin 1992-ci ildə Rio-de-Janeyroda keçirilən ətraf mühit və inkişaf üzrə konfransının materiallarında daha müfəssəl şəkildə yayılmışdı. Konsepsiya XXI əsrdə dövlətlərin beynəlxalq münasibətlərdə davranış kodeksini ifadə edir. Onun əsas ideyası – müasir şəraitdə dünya inkişafının başlıca vəzifələrini müəyyən etməkdir. Burada yalnız həyat səviyyəsi, maddi rifah problemləri deyil, insan həyatının bütün sosial aspektləri ( təhsil, sağlamlıq, mədəniyyət, informasiya təminatı, məişət və s.) ətraflı işıqlandırır. Onlar Rio bəyannaməsinin 27 prinsipində ifadə olunur.

Azərbaycanda davamlı artımın təmin olunması istiqamətində sistemli tədbirlər həyata keçirilir. İnklüziv artım indeksinə görə Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında üçüncü yerə yüksəlib. "İnklüziv artım və inkişaf –2018" hesabatda inklüziv artım indeksinə əsasən ölkələr beş kateqoriyaya görə bölünüb. Sabit ölkələr sırasında Azərbaycan yer alıb. Azərbaycan 4,69 balla Litvadan 4,86 və Macarıstandan 4,74 geridədir.

Onu da qeyd etmək lazımdır ki, inklüziv artım indeksi yoxsulluq, təhsil, səhiyyə, gender bərabərliyi və. s kimi müvafiq göstəricilər üzrə hazırlanır. Dünya İqtisadi Forumu sərvətin və gəlir paylanması, yoxsulluğun səviyyəsi üzrə araşdırmalar aparır. Son illərdə Azərbaycanda da qeyd olunan məsələlərlə, əsasən də yoxsulluğun azaldılması ilə əlaqədar ciddi islahatlar həyata

| | |
|---|---|
| | keçirilmişdir və müsbət göstəricilər ilə nəticələr nail olunmuşdur. Məsələn, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarında ölkəmizdə yoxsulluğun 5 % həddində olduğunu demişdir.<br><br>**Фял.ц.ф.д., доc.Щ.Г.Ъавадова - Cəmiyyətin mənəvi həyatının şəxsiyyətin sosiallaşmasında rolu**<br>İnsanın həyat fəaliyyətinin ən zəngin hissəsi onun mənəvi varlıq sahəsidir. Ən elementar mənəvi ehtiyaclardan tutmuş, ən həssas və sinkretik tələbatlara qədər bütün mənəvi hadisələr, ideyalar və anlayışlar istehlakı burada baş verir. O, özünü həm şüur səviyyəsində, həm də insanın məqsədəuyğun fəaliyyəti sahəsində göstərir. Mənəvi həyat daim inkişafdadır, dəyişir və zənginləşir. Mənəvi həyat sahəsinə konkret olaraq elm, təhsil, kütləvi informasiya vasitələri, mədəniyyət, ədəbiyyat, din və incəsənət aiddir. Məhz bu sahələrin şəxsiyyətin sosiallaşmasında rolu əvəzolunmazdır.<br>Müasir dövrdə cəmiyyətdə qlobal sosial-iqtisadi və siyasi dəyişikliklər həyat fəaliyyətinin bütün sahələrinə, o cümlədən insanların mənəvi həyatına da təsir göstərir və sosial münasibətlərin yeni sisteminin formalaşmasına səbəb olur.<br><br>**Фял.ц.ф.д., доc. С.А.Исмайылова - Azərbaycanda xeyriyyəçilik fondları və onların inkişaf perspektivləri.**<br>Azərbaycanda xeyriyyəçilik fondlarından danışarkən ilk öncə Heydər Əliyev Fondunun fəaliyyətindən bəs etmək lazımdır. Mehriban xanım Əliyeva 2004-cü ildən təsis edilmiş Heydər Əliyev Fondunun prezidenti kimi Azərbaycan cəmiyyəti və dünya xalqları üçün xüsusi əhəmiyyəti ilə seçilən sosial-humanitar layihələrin təşəbbüskarı və reallaşdırıcısı olub. Yarandığı gündən qarşısına qoyduğu ali məqsədlərin gerçəkləşdirilməsi naminə inamla çalışan, qısa müddətdə strateji əhəmiyyət daşıyan bir sıra layihələri gerçəkləşdirən Heydər Əliyev Fondu cəmiyyətdə xeyirxahlıq ünvanına çevrilib. Ulu Öndər Heydər Əliyevin ideallarından ruh alan Fond Onun nəcib və müqəddəs əməllərini yaşatmaq üçün ən müxtəlif sahələrdə sistemli tədbirlər həyata keçirib, hər bir vətəndaşın zəruri istək və arzularının reallaşmasına, problemlərinin operativ həllinə maddi-mənəvi dəstək verib. Heydər Əliyev Fondunun yarandığı gündən bəri ictimaiyyətin ən müxtəlif təbəqələri ilə əlaqələrini genişləndirməklə, Azərbaycanın hərtərəfli inkişafına və vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətləndirilməsinə sanballı töhfələrini verib. Fondun fəaliyyəti, eyni zamanda, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təminatına yönəlib, qısa müddətdə bu sahədə böyük işlər görülüb. Heydər Əliyev Fondu və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək edib, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləyib, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə töhfələrini verib, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərib. Heydər Əliyev Fondunun təhsillə bağlı layihələri də vətəndaşların təhsil hüquqlarının daha etibarlı təminatı məqsədinə xidmət edir. Bunun üçün ölkədə müasir tipli yeni məktəblərin inşasının, tədris prosesinə normal şərait yaradılmasının zəruriliyini düzgün qiymətləndirən Fond qarşıya qoyduğu strateji hədəflərə doğru inamla addımlayıb, bir sıra uğurlu nəticələr əldə edib. Azərbaycan mədəniyyətinin, incəsənətinin, musiqisinin, mətbəxinin, ümumiyyətlə milli mədəni-mənəvi dəyərlərimizlə əlaqəli bütün tarixi nailiyyətlərimizin dünya miqyasında təbliğ edilməsi Mehriban xanım Əliyevanın dövlətimiz və xalqımız qarşısında görüdüyü misilsiz xidmətlərin tərkib hissəsidir. Təsadüfi deyil ki, Heydər Əliyev Fondu irimiqyaslı, möhtəşəm layihələri ilə Azərbaycanın dünya miqyasında multikultural, tolerant ölkəyə çevrilməsinə də güclü dəstək olub. Prezident İlham Əliyev də Fondun fəaliyyətini yüksək qiymətləndirərək qeyd edib: "Mehriban Əliyevanın rəhbərliyi ilə Fond nəinki |

Azərbaycanda, eyni zamanda, regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir”.

**Сос.ц.ф.д.,дос.Й.Н.Ялийева - Qloballaşma dövründə Azərbaycan cəmiyyətində ailə, təhsil-tərbiyə və məvəviyyat problemləri**

İşin bu hissəsində qloballaşma dövründə Azərbaycan cəmiyyətində ailə, təhsil-tərbiyə və mənəviyyat problemləri araşdırılmış, bu problemlərin həlli üçün xarici ölkələrin təcrübəsi öyrənilmiş və həmin probləmlərin aradan qaldırılması üçün tədqiqat aparmaqla yeni ideyalar və təklifkər irəli sürülmüş, yeni yanaşmalar təklif edilmiş və prioritetlər göstərilmişdir.

Ailə cəmiyyətin sosial strukturuna, siyasətə, iqtisadiyyata və eyni zamanda ailədaxili münasibətlərə, yeni nəslin xarakterinin, hisslərinin, əhvali-ruhiyyələrinin, dünyagörüşünün formalaşmasına təsir edir. Ailə tərbiyəsinin effektivliyi, bir tərəfdən ailənin sosial-iqtisadi potensialından, digər tərəfdən isə ailədəki mənəvi- psixoloji mühitdən asılıdır. Cəmiyyətin kiçik özəyi olan ailə inteqrativ hadisə olub, özündə əxlaqi dəyərləri, cəmiyyətin sosial-iqtisadi əsasını, onun bütün ziddiyyətlərini və meyllərini əks etdirir.

Tədqiqatın nəticələri göstərir ki, müasir şəraitdə uşaq tərbiyə müəssisələrinin, məktəblərin, ali məktəblərin, KİV-lərin və sosial mühütin, sosial institutların sosiallaşdırma funksiyası əhəmiyyətli dərəcədə artmışdır. Uşaq böyüdükcə ailənin uşaq uzərində rolu zəifləyir, ancaq məktəbin, “küçənin”, dost və tanışların və başqalarının təsiri artır.

Göründüyü kimi, bu problemin həllinin bir çox çətinliyi vardır. Belə ki, bu problemi, daha dərin elmi və praktik metod və metodologiyalar sayəsində həll etmək olar. Bunun üçün təhsil sisteminin ümumbəşəri mənəvi, milli, dini dəyərlər vasitəsilə intensivləşdirilməsi zəruridir. Çünki cəmiyyətin mənəviyyatının gələcəyi uşaqların bu günki tərbiyəsinindən asılıdır.

**Сос.ц.ф.д., мцял.Ф.Р.Хялилова – «Müasir dünyada miqrasiya proseslərinin səbəbləri, nəticələri və inkişaf meylləri»**

Müasir dünyada baş verən qloballaşma prosesləri miqrasiya ilə bağlı problemlərin idarəolunması məsələsini olduqça aktual edir. İnsanlararası münasibətlərin intensifikasiyası, bunun nəticəsində müəyyən effektlərin – həm müsbət, həm mənfi effektlərin əmələ gəlməsi, miqrasiyaların idarəoluması ilə bağlı məsələlərə diqqətin artmasını zəruri edir.

Beynəlxalq miqrasiya proseslərinin idarəolunmasında aşağıdakı, bir-birini tamamlayan əsas istiqamətləri qeyd etmək olar – hüquqi, təşkilati və sosietal. Hüquqi yanaşma miqrasiya proseslərinin idarəolunmasında müxtəlif prinsip və normaların işlənməsi və reallaşdırılmasını nəzərdə tutur. Təşkilati yanaşma bu istiqamətdə fəaliyyət göstərən təşkilati strukturların formalaşması və fəaliyyətlərinin optimallaşdırılmasını nəzərdə tutur. Sosietal yanaşma cəmiyyətin, onun müxtəlif sferalarının fəaliyyətlərinin optimallaşdırılmasını vacib bilir. Bu istiqamətlərin təhlili onu göstərir ki, müasir dünyada baş verən miqrasiya proseslərinin idarəolunmasının effektivliyi problemə sistemli yanaşmanı– cəmiyyətin müxtəlif sferalarının və strukturlarının fəaliyyətinin nəzərə alınması və mövcud vəziyyətə uyğun dəyişikliklərin aparılmasini zəruri edir.

**Мцял.С.С.Щашымова – Azərbaycanda şəxsiyyətin peşə müqəddəratının müəyyənləşdirilməsi problemi ictimai rəy sorğusu müstəvisində**

Bakı şəhərində “Müasir Azərbaycan cəmiyyətində şəxsiyyətin peşə müqəddəratını müəyyənləşdirən amillərin sosioloji təhlili” mövzusunda tərəfimizdən anket sorğusu keçirilmişdir. Anket sorğusu dörd mərhələdə keçirilmişdir. Birinci mərhələdə ilkin məlumat toplanılmış, kütləvi çöl tədqiqatının təşkili üçün instrumentin (anketin) keyfiyyətinin yoxlanılması məqsədilə pilotaj sorğu keçirilmişdir. Metodun validliyi müəyyənləşdirilmişdir. Tədqiqat üçün əhəmiyyətli sayılan bütün sosial qruplar (stratlar) əhatə edilmişdir. Anket 24 sualdan ibarətdir.

| | |
|---|---|
| | İkinci mərhələdə cüzi dəyişikliklərlə pilotaj sorğusunun anketi saxlanılmış və kütləvi sorğuda tətbiq olunmuşdur. Tədqiqatda 400 respondent iştirak etmişdir ki, onlardan 28-nin sorğu vərəqəsi nöqsanlı, 372-ninki isə həqiqi hesab olunmuşdur. Beləliklə, sorğuda iştirak edənlərin həqiqi sayı 372 respondent olmuşdur. Hesablamalarımıza görə, bu sayda olan seçmə reprezentativdir. Üçüncü mərhələdə anket sorğusu vasitəsi ilə empirik məlumatlar toplanılmışdır. Dördüncü mərhələdə respondentlərin cavablarının təhlili aparılmış və elmi işin son hesabatı hazırlanmışdır.<br>Tədqiqatda seçmə metodundan, anket sorğusundan və statistik məlumatların təhlili metodlarından istifadə edilmişdir.<br>Tədqiqat işində instrument qismində anket sorğusundan (anket vərəqi) istifadə olunmuşdur. Anket tədqiq olunan mövzunun əhəmiyyətli aspektlərini ardıcıl və müfəssəl şəkildə əhatə etməklə formallaşdırılmış və standartlaşdırılmış suallardan ibarətdir.<br>Mövzunun əsas aspektlərinə peşə seçiminə kimlərin və ya nəyin təsiri, hər hansı bir ixtisas və ya peşənin seçilməsinin motivləri, sahəsində fəaliyyət göstərilən peşənin respondentlərin maddi və mənəvi vəziyyətinə təsiri, peşə seçiminə hansısa bir düzəliş edilib-edilməməsi və bunun səbəbləri, öz ixtisasını hansı ixtisas və ya peşəyə dəyişmək istəyi, seçdiyi sahədə irəliləmək üçün hansı bacarıq və keyfiyyətlərin önəmli olması, sosial-demoqrafik və s. kimi göstəricilər daxil edilmişdi. Bu suallar vasitəsilə şəxsiyyətin peşə müqəddəratını müəyyənləşdirən amillər ölçülmüşdür. Əldə edilmiş interpretasiya peşə müqəddəratının müəyyənləşdirilməsində respondentlərə həqiqi təsir göstərən amilləri aydınlaşdırmağa və onları sosioloji nöqteyi-nəzərdən təhlil etməyə imkan vermişdir. Tədqiqatda seçmə metodunun təsadüfi, təkrarsız və stratifikasiya edilmiş növlərindən istifadə edilmişdir. Seçmənin miqdarı: n=372 olmuşdur. Kütləvi sorğunun (anket sorğusunun) nəticələrinin emalı SPSS xüsusi kompüter proqramı ilə həyata keçirilmişdir. Sorğuda iştirak edənlərin 49 faizini kişi, 51 faizini isə qadın cinsindən olan respondentlər təşkil etmişdir. Tədqiqat materialı təhlil edilmiş, nəzəri və praktik tövsiyələr irəli sürülmüşdür. |
| **3** | **Ən mühüm elmi nəticələr**<br>*(nəticələr səlis və konkret yazılmalıdır)* |
| | 1. Sahibkarlıq fəaliyyəti sahəsində:<br>- İqtisadi institutların keyfiyyətinin artırılmasını və sahibkarlığın təşviq edilməsini rəhbər tutan iqtisadi siyasətin aparılması.<br>- Müəyyən olunmuş normalar üzərində güclü nəzarətin qurulması və onların həyata keçirilməsinə görə sosial aktyorların hüquqi məsuliyyətinin artırılması.<br>- Ölkədə yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına ciddi diqqət yetirilmıəsi.<br>- “Qeyri-rəsmi iqtisadiyyat”ın sərbəst sahibkarlığa çevrilməsi, ölkədəki iş-güzarlıq mədəniyyətinin yüksəldilməsi, iqtisadi inkişafdakı siyasi məhdudiyyətlərin aradan qaldırılması.<br>2. İnterdisiplinar yanaşma çərçivəsində inteqrasiya və sintez əsas kateqoriyalardır. Ənənəvi fənlərdən fərqli olaraq, interdisiplinar yanaşma biliyin hasili və emalının yeni epistemoloji modeli kimi təqdim edilir. Sosioloji bilik yaxud sosial biliklər sistemi interdisiplinar epistemologiyanın tələblərinə görə inteqrasiya və sintez edilmiş hibrid (sintetik) bilik növü qismində izah edilir.<br>3. Müasir dövrdə cəmiyyətdə qlobal sosial-iqtisadi və siyasi dəyişikliklər həyat fəaliyyətinin bütün sahələrinə, o cümlədən insanların mənəvi həyatına da təsir göstərir və sosial münasibətlərin yeni sisteminin formalaşmasına səbəb olur.<br>4.Müasir dünyada gedən miqrasiya proseslərinin idarə olunmasında sistemli yanaşma zəruridir. Müasir dünyada gedən miqrasiya proseslərinin idarə olunmasının əsas üç istiqamətdə - hüquqi, təşkilati və sosietal aparılması vacibdir. |

| | |
|---|---|
| | 5. Son zamanlar təhsil və tərbiyə prosesində həddindən çox praqmatizm öz əksini tapır. Bu gün optimal təhsilin məqsədi uşağa artıq məlum, təkrar olunan situasiyaların öhdəsindən gəlməyi öyrətmək, müstəqil qərar qəbul etməyi, əsaslı düşünməyi bacarmaq imkanının təmin edilməsidir.<br>6.Təhsil sisteminin ümumbəşəri mənəvi, milli, dini dəyərlər vasitəsilə intensivləşdirilməsi zəruridir.<br>7.Dövlət və xeyriyyəcilik fəaliyyətinə cəlb edilmiş vətəndaşlar, təşkilatlar, fondlar və bütövlükdə özəl sektor öz aralarında əlaqəli şəkildə fəaliyyət göstərməlidirlər. Bu qarşılıqlı fəaliyyət yalnız bərabər hüquqlu əməkdaşlıq formasında həyata keçirilməlidir.<br>8.Gənc nəslin peşə özünümüəyyənləşdirməsinə təsir göstərən mühüm amillərdən biri də onun peşə haqqında formalaşan təsəvvürüdür. Peşə seçimində dəyişikliklər daha çox şəxsi motivlərlə izah olunur və burada peşənin aktuallığı, gəlirliliyi, gərəkliliyi və s. elə də bir rol oynamır. |
| **4** | **Mövzunun yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar** |
| | 1. Struktur-funksional, konflikt və interaksionist yanaşmalardan istifadə olunmuşdur.<br>2. Statistik təhlil, dərin intervü, sorğu, müşahidə, ekspert təhlili və s. Metodlardan istifadə olunmuşdur. |
| **5** | **Mövzu üzrə məqalələr**<br>*(müəlliflərin ad və familiyaları açıq şəkildə yazılmalıdır; dərc olunmuş, qəbul olunmuş və ya çapa göndərilib; məqalələrin surətlərini əlavə etməli; internetdəki mənbənin linki göstərilməlidir)* |
| | *1.* Həsənov Rəfail. Sosiologiyada keys-stadi metodu: nəzəri-metodoloji təhlil. *Əmək və Sosial Münasibətlər, 2020, №1, s.5-17 (qəbul olunmuşdur)*<br>2. Həsənov Rəfail. Orta sinif post-sovet Azərbaycanının sosial strukturunda. *Sosial tədqiqatlar, 2020, №1, 34-46. (qəbul olunmuşdur)*<br>3. Ağayev Tahir. Sosiologiya dair sxemlər. Bakı .Ləman NP , 2020.93 s. Metodik vəsait (*dərc olunmuşdur*)<br>4. Ağayev Tahir. Tarix terrorizmi və saxtakarlığı bağışlamır. BDU. Sosial və humanitar elmlərin müasir problemləri. Elmi əsərlər toplusu. Buraxılış №26 (I hissə). Bakı. 2020.s.95-98.(*dərc olunmuşdur*)<br>5. Cavadova Hörmət. “Ахмед-бек Агаоглу, как выдающийся общественно-политический деятель тюркского мира” 2020-ci ilin mart ayında Ukraynada (VIRTUS: Scientific Jurnal/ Editor-in-Chief M.A. Zhurba-March 42, 2020,-227p. (*dərc olunmuşdur*)<br>6. Cavadova Hörmət. Azerbaycanda etnik-kültürel değerlerin korunması ve geliştirilmesi. 2-ci Uluslararası Türk-Rus Dünyası Akademik Araştırmalar Kongresi (UTRAK), Ankara, 2019, s.181-188. (*dərc olunmuşdur*)<br>7. Cavadova Hörmət. “G.A.Oliverin səyahətnaməsində İstanbul əhalisinin etnik və mədəni müxtəlifliyi haqqında” BDU-nun Xəbərləri. Sosial-siyasi elmlər seriyası. *(qəbul olunmuşdur)*<br>8. İsmayılova Sevil. Развитие волонтерства в мире и Азербайджане. Тенденции развития науки и образования//Научный журнал №68 Самара. *(qəbul olunmuşdur)*<br>9. Əliyeva Yaqut. Sevinc Əliyeva. “Реформирование и оптимизация системы дошкольного и общесреднего образования в Азербайджане в процессе глобализации: социологический анализ”. Frankfurt University of Applied Sciences in Frankfurt am, CEAD. July 25–27, 2019. CONTEMPORARY EDUCATIONAL RESEARCHES: THEORY AND PRACTICE IN EDUCATION/ |

| | |
|---|---|
| | Proceedings of International Contemporary Research Congress/. Printed in Copyright: Books on Demand GmbH BoD 2019, Nordersted, Germany, Frankfurt am Main. S.138-145. (*dərc olunmuşdur*)<br>10. Xəlilova Fərəh. Проблема управления миграционными процессами в современном мире. BDU. Sosial və humanitar elmlərin müasir problemləri. Elmi əsərlər toplusu. Buraxılış №26 (I hissə). Bakı. 2020.s. 104-108.(*dərc olunmuşdur*)<br>11. Haşımova Südabə. "Sosioloji tədqiqatların metodologiyası və metodikası" (sosiologiya ixtisasının bakalavr pilləsi üçün) kursunun proqramı. Bakı-2020, Ləman Nəşriyyat Poliqrafiya MMC. 51s. (Həcmi: 3.25 ç.v.) (*dərc olunmuşdur*).<br>12. Haşımova Südabə. "Şəxsiyyətin peşə müqəddəratının müəyyənləşdirilməsinə ailənin təsiri". Bakı Universitetinin Xəbərləri Sosial-Siyasi elmlər seriyası *(qəbul olunmuşdur)*<br>13. Haşımova Südabə. Şəxsiyyətin peşə müqəddəratını müəyyənləşdirmənin bəzi nəzəri məsələləri". AMEA-nın Məruzələri *(qəbul olunmuşdur)* |
| **6** | **Mövzu üzrə monoqrafiyalar**<br>*(müəlliflərin ad və familiyaları açıq şəkildə yazılmalıdır; kitabın çap olunduğu və ya çapa göndərildiyi qeyd olunmalıdır; kitabın üz qabığı, titul vərəqinin 1-ci və 2-ci səhifəsi, mündəricat və buraxılış məlumatlarının verildiyi səhifələrin surətləri əlavə edilməlidir)* |
| | Yoxdur. |
| **7** | **Mövzu üzrə konfrans materialları**<br>*(müəlliflərin ad və familiyaları açıq şəkildə yazılmalıdır; materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi qeyd olunmalıdır; materialların surətləri əlavə edilməlidir; internetdəki mənbənin linki göstərilməlidir)* |
| | ***1.*** Yaqut Əliyeva. Sevinc Əliyeva. *"Küresel Dönüşümler ve Farklılaşmalar Kongresinin ikincisi 'Dijitalleşme ve Dijital Toplumun Geleceği"* adlı mövzusunda 12-14 Mart 2020 tarixlərində Beynəlxalq Elmi Konfrans Antalya, Akdeniz Üniversitesi, Sosyoloji Bölüm. "Küreselleşen dünyada şahsiyet ve toplumsal değerler sisteminin yeniden değerlendirilmesi ve bunun Azerbaycan toplumuna etkisi" *(Çapda)*<br>***2.*** Yaqut Əliyeva. Sevinc Əliyeva. "Toplum dönüşümü ve küreselleşme sürecinde insani değerlerin yeniden değerlendirilmesi ve bunun Azerbaycan toplumuna yansıması". **İNCES-2020**. *(International Congress of Science Culture and Education).* 29 oktyabr – 02 noyabr 2020-ci il tarixində Türkiyənin Alaniya şəhərində Akdeniz Universiteti, Selcuk Universiteti, DTI Universiteti, Alaniya Alaaddin Keykubat Üniversiteti, Alaniya HEP Üniversiteti, Amasiya Üniversiteti və Konya Gida ve Tarım Üniversitetinin və s. Birgə İNCES-2020 onlayn konfrans. Türkiyə, Alanya, 2020.*(Çapda)* |
| **8** | **Mövzu üzrə tezislər**<br>*(müəlliflərin ad və familiyaları açıq şəkildə yazılmalıdır; tezisin dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi qeyd olunmalıdır; tezislərin surətləri əlavə edilməlidir; internetdəki mənbənin linki göstərilməlidir)* |
| | 1. Yaqut Əliyeva. Sevinc Əliyeva. "Küreselleşme Çağında Müslüman Toplumu Ailesinin Problemlerinin Sosyolojik Analizi: Bölgesel Özellikler (Azerbaycan Toplumu Örneğinde)" **V.SADAB-2019.** 11-12 oktyabr 2019-cu il tarixində V.Uluslararası sosyal araştırmalar ve davranış bilimleri sempozyumu. *Gürcüstan, Tiflis*. "Özet Bildirileri Kitabı" s.28. (*dərc olunmuşdur*)<br>2. Yaqut Əliyeva. Sevinc Əliyeva. "Yeni koşullarda geleneksel değerler sistemlerinin yeniden değerlendirilmesi zarureti" /Необходимость переоценки традиционных систем ценностей |

| | |
|---|---|
| | в новых условиях. **VI.TURKCESS-2020.** (*VI. International Symposium on Educational and Social Sciences).* 30 oktyabr – 01 noyabr 2020-ci il tarixində Türkiyənin İstanbul şəhərində "6.TURKCESS Eğitim ve Sosyal Bilimler Kongress"i Biruni Universitetində Bartın Universiteti ilə birgə təşkil olunmuşdur, konfrans onlayn keçirilmişdir. Türkiyə, İstanbul. 2020. "Özet Bildirileri Kitabı". **S.298-299.** (*dərc olunmuşdur*)<br>3. Fərəh Xəlilova. Осмысление категории национального интереса в новых условиях (Çapda) |
| **9** | **İxtira üzrə patentlər, səmərələşdirici təkliflər**<br>*(bütün məlumatlar nümunədə göstərilən qaydaya uyğun olmalıdır)* |
| | Yoxdur. |
| **10** | **Mövzu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar)**<br>*(bütün məlumatlar nümunədə göstərilən qaydaya uyğun olmalıdır)* |
| | 1. Rəfail Həsənov. Azərbaycanda sahibkarlığın inkişafı və biznes mühiti (elmi seminar) 27 noyabr 2020-ci il. BDU.SEP. İştirakçılar Sosiologiya kafedrasının professor və müəllim heyəti. |
| **11** | **Yerli və xarici həmkarlarla əlaqələr**<br>*(bütün məlumatlar nümunədə göstərilən qaydaya uyğun olmalıdır)* |
| | Yoxdur |
| **12** | **Tələbələrin və gənc tədqiqatçıların mövzu üzrə elmi-tədqiqata cəlb olunması haqqında**<br>*(layihələr, məqalələr, konfrans materialları)* |
| | Yoxdur |
| **13** | **Tələbələrin və gənc tədqiqatçıların elmi məruzələri (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) haqqında**<br>*(bütün məlumatlar nümunədə göstərilən qaydaya uyğun olmalıdır)* |
| | Yoxdur |
| **14** | **Elmi problem və ya mövzu üzrə qrant layihəsi**<br>**(***adı, donor təşkilatın adı, BDU-nun layihədəki payı, layihənin ümumi dəyəri göstərilməklə)* |
| | Yoxdur |
| **15** | **Mükafatlar və təltiflər haqqında (elmi fəaliyyətə görə)**<br>*(bütün məlumatlar nümunədə göstərilən qaydaya uyğun olmalıdır)* |
| | Yoxdur |

## STATİSTİK CƏDVƏL

| | **Sayı** |
|---|---|
| Xarici jurnalda dərc olunmuş məqalə | 4 |
| Yerli jurnalda dərc olunmuş məqalə | 2 |
| Beynəlxalq elmmetrik bazalarda indekslənmiş jurnallarda dərc olunmuş məqalə | |

| | |
|---|---|
| Beynəlxalq səviyyəli elmi konfranslarda çap olunmuş konfrans materialı | 3 (çapda) |
| Beynəlxalq səviyyəli elmi konfranslarda məruzə | 2 |
| Respublika səviyyəli elmi konfranslarda çap olunmuş konfrans materialı | |
| Respublika səviyyəli elmi konfranslarda məruzə | |
| Patent (beynəlxalq) | |
| Patent (Respublika) | |
| Qrant layihəsi (beynəlxalq) | |
| Qrant layihəsi (Respublika) | |
| Monoqrafiya | |
| Dərslik və ya dərs vəsaiti | 1 (metodik vəsait) |
| Beynəlxalq jurnal nəşri | 5 |
| Китабын (монографийа, дярслик, дярс вясаити вя с.) редактору | 2 |
| Диссертасийа шурасында цзв | 3 |
| Beynəlxalq konfrans təşkili | 11 |

**Stuktur rəhbəri ____________________Həsənov Rəfail Musa oğlu**

**Mövzunun rəhbəri_____________________Rüstəmov İzzət Əşrəf oğlu**

**Tarix __15.12.2020__**